

## *2020-ci ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının makro-iqtisadi inkişafına dair*

Dünyada koronavirus pandemiyasının geniş yayıldığı və dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərdiyi şəraitdə, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı islahatlar nəticəsində yaradılan iqtisadi potensial hesabına 2020-ci ilin yanvar-mart ayları ərzində də ölkədə müsbət iqtisadi artıma nail olunmuşdur.

Ölkədə inflyasiyanın faktiki səviyyəsinin və qiymət artımı gözləntilərinin aşağı olaraq qalması hazırki dövrdə makroiqtisadi sabitliyin qorunub saxlanmasını şərtləndirən əsas amillərdən olmuşdur.

Görülmüş işlərin nəticəsində 2020-ci ilin yanvar-mart aylarında ÜDM real ifadədə 1.1% artaraq cari qiymətlərlə 18.3 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 1840.2 manat təşkil etmişdir.




***Qrafik 1. Əvvəlki ilin müvafiq dövrünə nisbətən neft və qeyri-neft sektorunun real artım tempi, %***

2020-ci ilin yanvar-mart aylarında ötən ilin müvafiq dövrünə nisbətən ÜDM-in qeyri-neft sektoru real ifadədə 3.5% artmışdır (2019-ci ilin yanvar-mart aylarında 1.7% artmışdır). Həmin dövr ərzində qeyri-neft sənayesi 22.5%, informasiya və rabitə sahəsi 17.9%, ticarət sahəsi 2.1%, kənd təsərrüfatı 3.7%, nəqliyyat və anbar



təsərrüfatı 7.2% artmış, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi isə 14.0% azalmışdır.

Neft-qaz sektoru üzrə isə 2020-ci ilin yanvar-mart aylarında 2019-ci ilin müvafiq dövrünə nisbətən 2.1% azalma qeydə alınmışdır. Bu sektorun ÜDM-də xüsusi çəkisi 36.7% olmuşdur.

2020-ci ilin yanvar-mart aylarında ölkədə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala qoyulmuş vəsaitin 58.0%-ni daxili investisiyalar, 42.0%-ni isə xarici investisiyalar təşkil etmişdir. Müvafiq dövrdə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 51.0%-i qeyri-neft bölməsinin, 49.0%-i isə neft bölməsinin inkişafında istifadə edilmişdir.

Qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərmiş, ixrac gəlirləri artmışdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2020-ci ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsi 4883.0 milyon ABŞ dolları, o cümlədən ixrac 3095.9 milyon ABŞ dolları, idxal isə 1787.1 milyon ABŞ dolları olmuş və 1308.8 milyon ABŞ dolları həcmində müsbət ticarət saldosu yaranmışdır.

2020-ci ilin 1 mart tarixinə iqtisadiyyata maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin həcmi 2019-ci ilin 1 sentyabr tarixinə nisbətən 21.0% artaraq 15696.4 milyon manat təşkil etmişdir. 2020-ci ilin 1 mart tarixinə milli valyutada verilən kreditlərin həcmi 2019-ci ilin 1 mart tarixi ilə müqayisədə 24.9%, xarici valyutada verilən kreditlərin həcmi isə 14.4% artmışdır.




***Qrafik 2. İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN***



2020-ci ilin 1 mart tarixinə əhalinin banklardakı əmanətləri 2019-cu ilin 1 mart tarixinə nisbətən 5.8% artaraq 8.7 milyard manat təşkil etmişdir (2019-ci ilin 1 mart tarixinə əhalinin banklardakı əmanətləri 8.2 milyard manat olmuşdur).

2020-ci ilin 1 mart tarixinə cəmi depozitlər 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 11.3%, milli valyutada olan depozitlər isə 25.3% artmışdır.




***Qrafik 3. Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN***

2020-ci ilin yanvar-mart aylarında əhaliyə istehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 0.4% azalaraq 11527.7 milyon manata bərabər olmuşdur. Pərakəndə ticarət dövriyyəsi 2019-ci ilin müvafiq dövrü ilə müqayisədə 1.2% artmış, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 5.5% azalmışdır. 2020-cı ilin müvafiq dövründə ölkə sakinləri pərakəndə ticarət şəbəkəsindən 4841.0 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları və 4401.3 milyon manatlıq qeyri-ərzaq malları almış və bu göstəricilərin həcmi ötən ilin eyni dövrünə nəzərən müvafiq olaraq 2.9% artmış və 0.5% azalmışdır.

2020-ci ilin yanvar-mart aylarında əhalinin nominal gəlirləri 6.8% artaraq 13.4 milyard manat təşkil etmiş, əhalinin hər nəfərinə düşən nominal gəlirləri isə 5.8% artaraq 1350.2 manata çatmışdır.

2020-ci ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin




orta aylıq əmək haqları 2018-ci ilin eyni dövrü ilə müqayisədə 28.4% artaraq 712.3 manat təşkil etmişdir

.